AZƏRBAYCAN RESPUBLİKASI

# BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏRƏNCAMI

№ 80 «10» 07 2020-ci il

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının mənzil uçotu haqqında 30.12.2011-ci il tarixli 246 saylı Sərəncamında dəyişiklik edilməsi barədə**

Vətəndaş Akmanova Mariya Dovlyadşa qızı ərizə ilə Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət edərək, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 30.12.2011-ci il tarixli 246 saylı sərəncamında dəyişiklik edilərək, mərhum həyat yoldaşı Akmanov Çingizxan Ənvəroviçin mənzil növbəsinin öz adına dəyişdirilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Araşdırmadan məlum olmuşdur ki, vətəndaş Ç.Ə.Akmanov Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 30.12.2011-ci il tarixli 246 saylı sərəncamı ilə ailə tərkibi 2 nəfərlə (özü və arvadı) "20 Yanvar" faciəsinin II qrup əlili kimi güzəştli əsaslarla yaşayış yeri üzrə mənzil növbəsinə götürülmüşdür.

Vətəndaş Akmanova Mariya Dovlyadşa qızının təqdim etdiyi sənədlərdən göründüyü kimi həyat yoldaşı 25.12.2016-ci il tarixdə vəfat etmişdir (26.12.2016-cı il tarixli VII-MIO № 758939 saylı Ölüm Haqqında Şəhadətnamə).

Qeyd olunanlara, Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 55.3-cü maddəsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 24 iyul tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydasına və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.6.8-ci və 6.8-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 30.12.2011-ci il tarixli 246 saylı sərəncamında dəyişiklik edilərək, mərhum Akmanov Çingizxan Ənvəroviçin mənzil növbəsi həyat yoldaşı Akmanova Mariya Dovlyadşa qızının adına dəyişdirilsin.
2. Vətəndaş Akmanova Mariya Dovlyadşa qızının mənzil növbəsi ailə tərkibi 1 nəfərlə (özü) yaşayış yeri üzrə Binəqədi Rayon İcra Hakimiyyətində "20 Yanvar" faciəsinin II qrup əlilinin dul arvadı kimi güzəştli əsaslarla yaşayış sahəsilə təmin olunacaq ailələrin siyahısına daxil edilərək 30.12.2011-ci il tarixdən hesab edilsin.
3. Sərəncamın surəti məlumat üçün vətəndaş Akmanova Mariya Dovlyadşa qızına və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilsin.

Elxan Allahverdiyev

№ 53

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** Sabir Əliyev

SƏNƏDLƏR ÜÇÜN

CS CamScanner ilə skan edilib